# Ermənistanda qarşıdurma kəskinləşir

## Müxalifət Paşinyanın istefasını tələb edir, baş nazir legitimliyini xalqın iradəsi ilə əlaqələndirir

**Ermənistanda Nikol Paşinyan hakimiyyətinin siyasətinə qarşı çıxan sabiq iqtidar təmsilçiləri yenidən qarşıdurma yaratmaqla ölkədə növbəti xaos formalaşdırmaq məqsədi güdürlər. Belə ki, son günlər Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı gedən müzakirələr fonunda keçmiş hərbi xuntanın revanş istəyi vəziyyətin daha da qarışacağını göstərir.**



Bütün bunların fonunda Nikol Paşinyan öz hakimiyyətinin legitimliyini vurğulayan yeni bir bəyanat verib. O, 2018-ci ildə Ermənistanda baş verən "məxməri inqilab"ın nəticəsində xalqın hakimiyyətə gəldiyini bildirib: "Məni hakimiyyətə heç kim gətirməyib. 2018-ci ildə baş verən demokratik, zorakılıq olmadan və məxməri inqilabın nəticəsində hakimiyyətə xalq gəldi. Mən sadəcə xalq hakimiyyətinin nümayəndəsiyəm və xalq nə vaxt istəsə, məni başqa biri ilə əvəz edəcək".

Bu açıqlama son dövrlər Ermənistanda artan siyasi gərginlik fonunda diqqət çəkir. Müxalifət qüvvələri Paşinyanın istefasını tələb edir, lakin baş nazir öz legitimliyini xalqın iradəsi ilə əlaqələndirərək, hakimiyyətdən yalnız seçicilərin qərarı ilə gedəcəyini bildirir.

Nikol Paşinyan keçmiş hakimiyyət nümayəndələrinə də sərt mesaj ünvanlayıb. O, siyasi opponentlərinin öz aralarında onun hakimiyyətə necə gəldiyini müzakirə etdiyini bildirərək, onları xalqın iradəsini saxtalaşdırmaqda ittiham edib: "İki yarıköhnəlmiş sima və onların ətrafı, hakimiyyətə məni kimin gətirdiyi barədə mübahisə edir, bir-birindən həqiqəti deməyi tələb edirlər. Siz - heç vaxt Ermənistanda xalqın səsini qazanmayan, seçkiləri saxtalaşdıran uzurpatorsunuz. Bəs sizi hakimiyyətə kim gətirib, bunu danışın".

Qarşıdakı dövrdə Ermənistanın sosial-iqtisadi durumunun daha da ağırlaşması qaçılmaz sayıldığından müxalifət bu amildən də mümkün qədər öz siyasi məqsədləri üçün istifadə etməyə cəhd göstərir. Çünki iqtidarın sosial-iqtisadi siyasəti müxalifətin əsas tənqid hədəfləri sırasında yer alır. Yəni Paşinyan siyasi baxımdan mövqelərini qorusa da, iqtisadi sahədəki çətinliklər ona qarşı çıxanların sayını artırır. Ermənistan mətbuatı yazır ki, hakimiyyət ölkə iqtisadiyyatında guya dirçəliş baş verməsi, işsizliyin getdikcə azalması, əhalinin sosial vəziyyətinin yaxşılaşması haqqında ağızdolusu danışsa da, faktlar tamamilə bunun əksini deyir.

Qeyd olunur ki, Ermənistanda rəsmən gənclərin 60 faizdən çoxu işsizdir. Ölkə rəhbərliyinin işsizliyin azaldığı barədə pafoslu məlumatına baxmayaraq, əslində, bu sahədə acınacaqlı vəziyyət mövcuddur, işsizlik azalmaq əvəzinə, getdikcə artmaqdadır. Qeyri-rəsmi məlumatlara görə, ölkədəki gənclərin 80 faizi işsizdir. Ailəsini dolandırmaq üçün xarici ölkələrə üz tutan ermənilər sayəsində Ermənistanda əhalinin sayı ildən-ilə azalır. Ona görə də Ermənistan əhalisi qocalmaqda olan ölkələr sırasında yer alır. İnflyasiyanın və korrupsiyanın baş alıb getdiyi, iqtisadiyyatı iflic vəziyyətinə düşən Ermənistanın xarici borcları da durmadan artır.

Demoqrafiya ilə bağlı yaranan vəziyyət həm də Ermənistanda orduya çağırışda çətinliklər yaradır. Açıq şəkildə deyilir ki, Ermənistan ordusu ağır çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkünsüz olur. İkinci Qarabağ müharibəsindəki məğlubiyyətdən sonra yaranmış vəziyyətin təhlili göstərir ki, Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, həm də ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

Göründüyü kimi, müxtəlif sahələrdə yaranan problemləri gündəmə gətirməklə revanşist qüvvələr Paşinyanı devirmək planlarından əl çəkmək istəmirlər. Xalqın daha çox dəstək verdiyi baş nazir indi özü müxalifətə qarşı hücuma keçib və repressiyaları artırır. Bu fonda müxalifətdə parçalanmaların olacağı da proqnozlaşdırılır.

Paşinyana vətəndaşların dəstəyi müxalifətə göstərilən etimaddan güclü olduğundan baş nazir repressiyalar və kütləvi həbslərdən belə çəkinmir. Bütövlükdə isə yaranmış vəziyyət Ermənistanın dərin siyasi böhrana yuvarlanmasından xəbər verir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 11 mart (№53).- S.8.